# “Heydər Əliyev Azərbaycan sənayesini iqtisadi inkişafın mühüm amili sayırdı”





***Bu sözləri Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə Azərbaycan Kooperasiya Universitetinin 60 illik, onun tərkibində olan Bakı Biznes və Kooperasiya Kollecinin 85 illik yubileylərinə həsr edilmiş “Yeni reallıqlar şəraitində Azərbaycanın iqtisadi və sosial inkişafı: problemlər, çağırışlar, perspektivlər” mövzusunda beynəlxalq elmi-praktiki konfransda çıxışı zamanı deyib.***

Ziyad Səmədzadə müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətinin artması, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayan sənaye sahəsinin böyük inkişaf yolundan danışaraq, qeyd etmişdir ki, Azərbaycan XIX əsrdə Çar Rusiyasında Moskva, Peterburq istisna olmaqla digər regionlardan sənayenin inkişafına görə xeyli irəlidə idi. XX əsrin əvvəllərində dünya neft hasilatının yarısı Bakının payına düşürdü. 1940-1945-ci illərdə SSRİ üzrə neft hasilatının 70-75%-i Bakı mədənləri tərəfindən təmin edilirdi. II Dünya müharibəsində Bakı nefti olmasaydı, SSRİ kimi nəhəng dövlətin faşizm üzərində qələbəsi mümkün deyildi.

XX əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin böyük səyləri nəticəsində respublikamız neft sənayesi ilə yanaşı, digər sahələri əhəmiyyətli dərəcədə inkişafı ilə fərqlənirdi. 1985-ci ildə respublika sənayesində 446.2 min, maşınqayırma kompleksində 131.0 min, yüngül sənayedə 107.1 min insan çalışırdı.

**Z.Səmədzadə deyib:** “Azərbaycan Respublikasının yaxın və uzaq gələcəyə hədəflənmiş inkişaf strategiyasında sənayenin rolunun artması vacib istiqamət kimi qiymətləndirilməlidir. Bu bir inkaredilməz həqiqətdir ki, ölkənin iqtisadi təhülkəsizliyini təmin etmək, milli iqtisadiyyatın rəqabət qabiliyyətliyini artırmaq üçün ən qüdrətli amillərdən biri yüksək inkişaf etmiş emal sənayesinin yaradılmasıdır. Heydər Əliyev ötən əsrin 70-ci illərində respublikada sənayenin sahə quruluşunun yaxşılaşdırılması ilə bağlı çox mühüm müsbət dəyişikliklərə nail oldu. Respublikada daha bir neçə böyük zavod – Bakı Məişət Kondisionerləri zavodu, Elektrotexnika, Radiotexnika, Elektronika, bir neçə maşınqayırma və başqa zavodlar tikilib istifadəyə verildi.

Bütün bunlarla kifayətlənməyən Heydər Əliyev Azərbaycan sənayesi strukturunun əsaslı surətdə təkmilləşdirilməsi təklifi ilə İttifaq rəhbərliyinə müraciət etdi. Azərbaycan rəhbərinin təklifləri əsasında Sov. İKP MK ***“1976-1980-ci illərdə respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsi barəsində”*** qərar qəbul etdi. 14 yeni zavodun, 18 yeni qurğunun tikintisi, 21 müəssisənin yenidən qurulması və genişləndirilməsi nəzərdə tutulurdu. Tikiləcək, genişləndiriləcək və yenidən qurulacaq obyektlərdə istehsal güclərinin tam işə salınması ilə sənaye məhsulunun ümumi həcmi 1,5 milyard rubl təşkil etməli idi. Yeni müəssisələrin Bakı, Kirovabad (Gəncə), Əli Bayramlı (Şirvan) və Mirbəşir (Tərtər) şəhərlərində tikilməsi nəzərdə tutulurdu. Xalq təsərrüfatı planının digər obyektləri ilə birlikdə bu obyektlərin tikintisinin respublika Tikinti Sənayesi Materialları Nazirliyinin gücü ilə həyata keçirilməsi, beşillik üçün tikinti-quraşdırma işlərinin həcminin 1171 milyon rubl təşkil etməsi gözlənilirdi”.

Akademik qeyd edib ki, 1991-ci ildə respublikamızın ÜDM-ində sənayenin xüsusi çəkisi 25%-ə bərabər olmuşdur. Müqayisə üçün bu rəqəm ABŞ-da 22%, Yaponiyada 24%, Fransada 20%, İngiltərədə 20%, İtaliyada 22% təşkil edib.

Ulu Öndər Heydər Əliyev sənayenin aparıcı sahəsi olan neft emalında istehsalı inkişaf etdirmək pərdəsi altında dövlətimizin müstəqilliyinin ağır illərində atılan addımlara kəskin etirazını bildirir, bu kimi işlərin iqtisadi müstəqilliyimiz üçün çox ziyanlı olduğunu qətiyyətlə pisləyir, ölkənin sənayeləşməsi istiqamətində cəsarətli addımların atılmasını təxirəsalınmaz bir vəzifə kimi qiymətləndirirdi.

Ona görə də müasir dövrdə sənayedə köklü struktur dəyişikliklərinin, texnoloji təkmilləşdirmələrin aparılması obyektiv zərurətdən doğan strateji xarakterli bir vəzifədir. Bu vəzifənin uğurla yerinə yetirilməsi üçün sənayedə struktur dəyişikliklərinin yeni alternativ yolları müəyyən edilməli, bu işdə rəqabətə davamlı vətənimizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi kimi strateji məqsədlərin həllinə xidmət edən amillərə üstünlük verilməlidir.

**Akademik deyib:** “2024-cü ildə respublikamızda 5355 sənaye müəssisəsi fəaliyyət göstərmişdir ki, ondan da 4257-si emal müəssisəsidir. Cəmi sənaye müəssisələrinin 60%-i mikro, 20%-i kiçik, 20%-i orta və iri müəssisələrdir. Sənayenin ümumi məhsul istehsalında özəl sektorun payı 80%-dən çoxdur. Müstəqillik dövründə qeyd edilən göstəricilərin dinamikasında baş verən dəyişikliklərin təhlilinin nəticələri onu deməyə əsas verir ki, respublika sənayesinin, xüsusilə də emal sənayesinin inkişaf sürətinin artırılması, onun sahə, ərazi quruluşunun təkmilləşməsi istiqamətində sistemli tədbirlərin görülməsi məqsədəuyğun olardı.

Bu gün iqtisadiyyatın, onun ayrı-ayrı sahələrinin rentabellik, mənfəətlilik səviyyəsində ciddi fərqlər mövcuddur. Bütövlükdə rentabellik səviyyəsi o qədər də yüksək deyil. Səmərəlilik göstəricilərinin yaxşılaşması həm institusional islahatları, həm də real sektorda mənfəətin artırılması imkanlarından daha dolğun istifadə olunmasını zəruri edir. Mədənçıxarma sənayesi istisna olmaqla iqtisadiyyatın digər sahələrində əldə edilən mənfəətin səviyyəsi bir birindən kəskin fərqlənir ki, onun da böyük bir hissəsi maliyyə-bank, vergi və sığorta fəaliyyəti ilə bağlıdır. Maraqlıdır ki, bank, vergi və sığorta fəaliyyətində əldə edilən mənfəətin miqdarı 1,5 milyon nəfərin çalışdığı ticarət, nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı, turistlərin yerləşdirilməsi və ictimai iaşə, peşə, elmi və texniki fəaliyyət, inzibati və yardımçı xidmətlərin göstərilməsi, istirahət, əyləncə və incəsənət sahəsində əldə edilən mənfəətdən çoxdur... Ümumiyyətlə iqtisadi sahələrin mənfəətlik səviyyəsi, onun artırılması imkanlarının sistemli təhlilinin aparılmasına, qanunvericilikdə müvafiq dəyişikliklər edilməsinə ehtiyac vardır.

Emal sənayesinin sahə, ərazi quruluşunun təkmilləşməsi, yüksək elm, mütərəqqi əməktutumlu sahələrin daha üstün inkişafı, yerli xammal resursları əsasında yüngül, yeyinti məhsullarını istehsal edən yeni müəssisələrin yaradılması, daxili bazarın qorunması dünya təsrübəsində özünü doğrultmuş iqtisadi mexanizmlərdən istifadə obyektiv zərurətdir.

***Bu baxımdan son illərdə sənayenin bir sıra aparıcı sahələrinin – metallurgiya, maşınqayırma, neft emalı, neft kimyası məhsulları istehsalının genişlənməsinə xidmət edən texnoparklar, sənaye məhəllələrinin yaradılması, ixtisaslaşmış zavodların istifadəyə verilməsi təqdirəlayiq hadisə kimi qiymətləndirilməlidir.***

Sənayenin keyfiyyətli inkişafı yeni iş yerləri, yüksək əməkhaqqı, ixtisaslı kadrların rolunun artması, cəmiyyətin keyfiyyətli inkişafı deməkdir. Səmərəli sənayenin davamlı və keyfiyyətli inkişafı milli iqtisadiyyatın qlobal risklərə daha davamlı olmasının vacib şərtlərindən biridir.

Azərbaycan müstəqil bir dövlət kimi özünün iqtisadi təhlükəsizliyini təmin etmək, yaranmış güclü iqtisadi potensialdan səmərəli istifadə etmək üçün müasir maşınqayırma, energetika, neft-kimya kompleksi, tikinti materialları, yüngül, yeyinti sənayesi sahələrinə malik olmalıdır və onların normal fəaliyyəti üçün həm daxili tələbatı ödəmək, həm də ixrac etmək imkanları vardır. Fikrimcə, real sektorun yuxarıda adları çəkilən hər bir sahəsinin proqnozlaşdırılan dövr üçün parametrləri, ilk növbədə milli maraqlara cavab verməli və bu strateji vəzifə kimi bütövlükdə sənayenin perspektiv inkişafını xarakterizə edən proqnoz araşdırmalarında öz əksini tapmalıdır.

İqtisadiyyat.- 2025.- 11-24 dekabr, №48/49.- S.3.